AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**Təsdiq edirəm:**

**“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrasının müdiri i.e.f.d,dos. E.Məmmədov**

**İmza:**
**Tarix :**

**Protokol**

# “FƏRDLƏR, QRUPLAR VƏ AİLƏLƏRLƏ SOSİAL İŞ” fənni üzrə

# İŞÇİ TƏDRIS PROQRAMI

## (Sillabus)

## Fənn haqqında məlumat

**Fənnin kodu:** **00343**

**Fənnin növü:** *əsas*

**Tədris ili:** **2025/2026**

**Tədris semestri:** *yaz*

**Tədris forması:** *əyani*

**Tədris dili:** **Azərbaycan dili**

**Fakültə:** **İqtisadiyyat**

**Kafedra:** **“İctimai idarəetmə və sosial innovasiyalar”**

**Qrup:**

**Tədris yükü:** ***60 saat ( mühazirə-30 saat / məşğələ- 15/15 saat)***

**Kredit sayı:** **5 kredit**

## Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** **baş müəllim Əliyeva Nərgiz Əmiraslan qızı**

**E-mail ünvanı:** **n.aliyeva@unec.edu.az**

**İş telefonu:** **012 564 37 05**

**Tələbələr üçün qəbul vaxtları:** **5-ci günlər 9:00 – 13:00**

## Fənnin təsviri

*Bu kurs cəmiyyətdə ptoblemi olan ayrı-ayrı fərdlərin,ailələrin və qrupların mənafeyini və sosial rifahını qorumağa kömək edir. .Bu işi yerinə yetirmək üçün sosial işçilərin daha fəal şəkildə hazırlanması lazımdır.Fərdlər,qruplar və ailələr haqqında tədqiqat apararkən daha diqqətli olmaq və problemlərin haradan qaynaqlandığını araşdırmaq lazımdır.*

*Kursun tədrisi prosesində zamanı sosial mühit amilləri və onların dinamikası öyrənilir. Xidmətlərin,sosial sığortanın,demoqrafik proseslərin sosial işə olan təsiri araşdırılır.Bununla yanaşı olaraq regionlardarda sosial işə və sahibkarlıq mühitinə də xüsusi diqqət ayrılır.İqtisadiyyatın sosial işə olan təsirləri qiymətləndirilir.*

## Fənnin məqsədi və vəzifələri –

“Fərdlər , qruplar və ailələrlə sosial iş ” fənni vasitəsilə fərdlərlə sosial iş təcrübəsi, fərdlərlə sosial işin tarixi və əhatə dairəsi, fərdlərlə sosial iş nəzəriyyələri, fərdlərlə sosial iş müdaxiləsini qiymətləndirmə, qruplarla sosial iş nəzəriyyələri, yanaşmalar, sosial iş müdaxiləsinin planlaşdırılması, ailələrlə sosial iş təcrübəsi, ailədaxili ünsiyyət və problemlər, boşanmaların səbəbləri kimi məsələlər öyrənilir. Fənnin məqsədi kurs üzrə mövcud olan tədris proqramı, tədris- metodik vəsaitlər əsasında tədrisin interaktiv metodlarından istifadə yolu ilə fərd, fərdiyyət, şəxsiyyət, qrup və ailələrlə sosial iş nəzəriyyəsi vətəcrübəsi sahəsində bütün proseslərin yüksək səmərəliliklə həyata keçirilməsində müvafiq bacarıqların formalaşdırılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilir:

- Fənnin predmeti, məqsədi və vəzifələrini öyrətmək;
- Fərdlərlə sosial işin nəzəriyyəsi və təcrübəsini izah etmək;
- Fərdiyyətlə bağlı nəzəri və təcrübi məsələləri öyrənmək;
- Qruplarla sosial işin nəzəri və təcrübi məsələlərini öyrənmək vəmüvafiq qiymətləndirmələr aparmaq;
- Ailələrlə sosial işin təşkili metodlarını, ailə məsələləri ilə bağlı nəzəri və təcrübi istiqamətləri öyrənmək;
- Fərd, fərdiyyət, insan, şəxsiyyət, qrup və ailələrlə sosial işin tədqiqat metodlarına yiyələnmək və s.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, şifahi təqdimat, fərdi işləmə, komanda şəklində məsələrin həlli, kiçik qruplarda iş, işgüzar oyunlar, tapşırıqların yerinə yetirilməsi, xüsusi nümunələrin öyrənilməsi və təhlili, test tapşırıqlarının yerinə yetirilməsi kimi tədris üsullarından istifadə edilir.

Tədris və təlim prosesində yerli və xarici ədəbiyyatlardan, internet resurslarından götürülmüş materialların, nümunələrin və keyslərin müzakirəsinə və həlli yollarının tapılmasına istiqamət verilərək, diqqət ayrılacaq. Biliklərin tətbiqi bacarıqlarını formalaşdırmaq üçün tələbələrə mövzuya aid tapşırıqlar həll edəcəklər.

Yeni mövzunun tədrisindən qabaq tələbələrə tapşırıılmış materiallar ilə tanış olunmalıdır.

## Öyrənmənin nəticələri:

Fənnin tədrisi ilə tələbələr sosial iş və sosial rifah haqqında ətraflı məlumat alır ,fərdlər,qruplar və ailələrə sosial xidmətin necə göstərilməli olduğunu öyrənir, sosial rifah proqramlarına aid münasibət formalaşdırır.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

### Bilməlidirlər:

1. Qruplarla sosial işin nəzəri və təcrübi məsələlərini öyrənmək və müvafiq qiymətləndirmələr aparmaq;
2. Fərdiyyətlə bağlı nəzəri və təcrübi məsələləri ğyrənmək;
3. Ailələrlə sosial işin təşkili metodlarını,ailə məsələləri ilə bağlı nəzəri və təcrübi istiqamətləri öyrənmək;
4. Fərdlərlə sosial işin nəzəriyyəsi və təcrübəsini izah etmək;

### Bacarmalıdırlar:

1. Sosial iş və xidmətin bir peşə sahəsi olaraq elmi və tarixi mərhələlərini təhlil etmək;
2 .İnsanlar və ətraf mühitin qarşılıqlı təsir fəaliyyətlərini,fərdin potensial imkanlarının inkişaf vəziyyətini təhlil etmək;

3. Qadınların sosial vəziyyətinə görə araşdırılması;
4. Ailədə verilən qərarlara görə ənənəvi və müasir yanaşmanın təhlili,ailə məişət problemləri və onların qarşısının alınmasına yönəlik sosio-psixoloji tədqiqatları,sosial iş və xidmətlərin aparılması istiqamətində xüsusi bacarıq və texnikaların istifadəsi;

## Fənnin mühazirə mövzuları

| | |
|---|---|
| MÖVZU 1. | FƏRDLƏRLƏ SOSİAL İŞİN TARİXİ VƏ NƏZƏRİ ƏSASLARI, BİLİK -BACARIQ- DƏYƏR ÜÇLÜYÜ |
| MÖVZU 2. | FƏRDLƏRLƏ SOSİAL İŞDƏ FƏRDİN KEÇDİYİ HƏYAT DÖVRÜ VƏ EKOLOJİ YANAŞMA |
| MÖVZU 3. | FƏRDLƏRLƏ SOSİAL İŞDƏ PLANLI MÜBADİLƏ PROSESİ |
| MÖVZU 4. | FƏRDLƏRLƏ SOSİAL İŞDƏ GÖRÜŞMƏ BACARIQLARI |
| MÖVZU 5. | FƏRDLƏRLƏ SOSİAL İŞDƏ TƏTBİQİ YANAŞMALAR. |
| MÖVZU 6. | QRUPLARLA SOSİAL İŞİN TARİXİ VƏ ƏHATƏ DAİRƏSİ |
| MÖVZU 7. | QRUPLARLA İŞİN FƏLSƏFİ VƏ NƏZƏRİ ƏSASLARI |
| MÖVZU 8. | QRUPLARLA SOSİAL İŞ NƏZƏRİYYƏSİ ,YANAŞMALAR VƏ METODLAR |
| MÖVZU 9. | QRUPUN DİNAMİKASI |
| MÖVZU 10. | TƏŞKİLATİ VƏ SOSİAL SAHƏLƏRDƏ QRUPLARLA İŞ. |
| MÖVZU 11. | AİLƏ SİSTEMİ, AİLƏ HƏYAT DÖVRÜ VƏ AİLƏ PROBLEMLƏRİ |
| MÖVZU 12. | AİLƏLƏRLƏ SOSİAL İŞDƏ TERAPİYA VƏ MƏSLƏHƏT YANAŞMALARI |
| MÖVZU 13. | AİLƏ MÜNAQİŞƏLƏRİ,AİLƏDƏ BOŞANMA VƏ PARÇALANMA |
| MÖVZU 14. | AİLƏYƏ TƏKLİF EDİLƏN SOSİAL XİDMƏTLƏR |
| MÖVZU 15. | AZƏRBAYCANDA AİLƏ,AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ AZƏRBAYCAN AİLƏSİNİN İNKİŞAF TENDENSİYASI |

## Prerekvizitlər

Sosial sahələrin iqtisadiyyatı və idarə edilməsi”.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

Aktaş, A. M. (2013). Aile Danışmanlığı ve Hizmet Yaklaşımı. H. Acar, N. Negiz, ve E. Akman içinde, Sosyal Politika ve Kamu

Yönetimi Bileşenleriyle Sosyal Hizmet Temelleri ve Uygulama Alanları (s. 181-194). Ankara: Maya Akademi.

Duyan, V., Özbulut, M., ve Özgür, Ö. (2008). Sosyal Hizmeti Tanımak ve Anlamak: Sosyal Hizmet Uzmanları ve Sosyal Hizmet Alanında Çalışanlar İçin Bir Rehber. Ankara: Sosyal Çalışma Yayınları

Hamilton, G. (1967). Sosyal Kişisel Çalışmanın Teori ve Uygulaması. (D. Karan, ve D. Sezer, Çev.) Ankara: Kardeş Matbaası

Turan, N. (2012). Birey ve Aileler ile Sosyal Hizmet. Ankara: Sosyal Hizmet Uzmanları Derneği Yayını Yayın No:21

Akkaya, A. (2019). Psikososyal Gelişim Alanı Olarak Bilgelik Gelişiminin İncelenmesi. Yayınlanmamış Yüksek Lisans Tezi). Kocaeli Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Kocaeli.

Aksoy, A. B., ve Koran, N. (2016). Türkiye'de Bebeklik Dönemi ile İlgili Yapılan Araştırmaların Analizi (2004-2014). Turkish Journal of Social Research/Turkiye Sosyal Araştırmalar Dergisi, 20(2), 363-376

Artan, T. (2017). Yaşlılarla Sosyal Hizmet, Ankara: Sabev.

Artan, T., ve Uzun, K. (2017). İklim Mültecileri Bağlamında Yeşil Sosyal Hizmet Üzerine Bir Tartışma.

Başkale, H., ve Bahar, Z. (2008). Piaget'nin Bilişsel Gelişim Kuramıyla İlgili Bir Gözden Geçirme. Dokuz Eylül Üniversitesi Hemşirelik Yüksekokulu Elektronik Dergisi. 1 (2), 133-147.

Zastrow, C. Ve Kirst-Ashman, K. K. (1987). Understanding Human Behavior and The Social Environment. Chicago: Nelson-Hall Publishhers.

Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, http://auzefkitap.istanbul.edu.tr/kitap/sosyalhizmetler_ao/sosyalhizkur.pdf

Artan T. ve Kumbasar B. (2017). Sosyal Hizmet Mesleğinde Etkili İletişim, Sosyal Çalışma Dergisi, (1)2, 51-63.

Artan, T. (2020). İstanbul Üniversitesi-Cerrahpaşa Sosyal Hizmet Bölümü "Bireylerle Sosyal Hizmet" ve "İletişim Becerileri" Ders Notları

## Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## MÜHAZİRƏLƏRİN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| № | Mövzuların adı | Məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1. | Fərdlərlə sosial işin tarixi və nəzəri əsasları,bilik-bacarıq-dəyər üçlüyü | Bu mövzuda əsasən fərdlərlə sosial işin tarixi haqında danışılmış, tarixi inkişaf mərhələli şəkildə araşdırılmış və fərdlərlə sosial işin əsas prinsipləri açıqlanmışdır. Bundan başqa bu mövzuda əsas və fəlsəfi fərziyyələr və sosial işin əsasları da göstərilmişdir | Aktaş, A. M. (2013). Aile Danışmanlığı ve Hizmet Yaklaşımı. H. Acar, N. Negiz, ve E. Akman içinde, Sosyal Politika ve Kamu Yönetimi Bileşenleriyle Sosyal Hizmet Temelleri ve Uygulama Alanları (s. 181-194). Ankara: Maya Akademi |
| 2. | Fərdlərlə sosial işdə fərdin keçdiyi həyat dövrü və ekoloji yanaşma | Bu mövzuda ekoloji yanaşma çərçivəsidə fərdin həyat dövrü də qiymətləndirilmişdir. Mövzuda ekoloji yanaşmanın anlayışları : sistem,sosial mühit,mühit daxilində fərd,enerji,qarşılıqlı əlaqə,qarşılıqlı asılılıq,mübarizə,uyğunlaşma və kəsişmə də ayrı-ayrılıqda izah edilir. | Hamilton, G. (1967). Sosyal Kişisel Çalışmanın Teori ve Uygulaması. (D. Karan, ve D. Sezer, Çev.) Ankara: Kardeş Matbaası |
| 3. | Fərdlərlə sosial işdə planlı mübadilə prosesi | Planlı mübadilə prosesinin bütün mərhələləri ayrı-ayrılıqda araşdırılır və | Turan, N. (2012). Birey ve Aileler ile Sosyal Hizmet. Ankara: Sosyal |

| | | | |
|---|---|---|---|
| | | planlı mübadilə prosesi üzrə tövsiyyələr verilir | Hizmet Uzmanları Derneği Yayını Yayın No:21 |
| 4. | Fərdlərlə sosial işdə görüşmə bacarıqları. | Mövzunun əsas məqsədi görüşmə və söhbət arasındakı fərqləri araşdırmaq, sosial iş görüşmələrini digər görüşmələrdən fərqləndirən xüsusiyyətləri bilmək,bu görüşlərdə sosial işçinin rollarını ayrıd etmək və gorüşmə prosesinin mərhələlərini öyrənməkdir. | Turan, N. (2012). Birey ve Aileler ile Sosyal Hizmet. Ankara: Sosyal Hizmet Uzmanları Derneği Yayını Yayın No:21 |
| 5. | Fərdlərlə sosial işdə tətbiqi yanaşmalar | Mövzuda müzakirə olunacaq yanaşmalar sosial işçilərin fərdlərlə sosial iş zamanı tətbiq etdikləri təcrübə haqqında nəzəri bilikləri əhatə edir. | Hamilton, G. (1967). Sosyal Kişisel Çalışmanın Teori ve Uygulaması. (D. Karan, ve D. Sezer, Çev.) Ankara: Kardeş Matbaası |
| 6 | Qrup işinin tarixi və əhatə dairəsi. | Mövzuda əsas məqsədin fərdləri qorumaq, inkişaf etdirmək, dəyişdirmək,uyğunlaşmaya kömək etmək və müalicə etmək olduğu açıqlanır. Qrup işinin hansı sosial mühitdə meydana çıxdığı anlaşılır və qrup işinin tarixi prosesi açıqlanır | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |
| 7. | Qruplarla işin fəlsəfi və nəzəri əsasları | Mövzunun öyrənilməsi gedişatında qrup nəzəriyyəsi və dinamikasının əsas elementləri təhlil edilir və qrup işinin məqsədləri | Aktaş, A. M. (2013). Aile Danışmanlığı ve Hizmet Yaklaşımı. H. Acar, N. Negiz, |

| | | | |
|---|---|---|---|
| | | öyrənilir. Mövzuda ekosistem yanaşması və gücləndirmə əsaslı təcrübələr qiymətləndirilir | ve E. Akman içinde, Sosyal Politika ve Kamu Yönetimi Bileşenleriyle Sosyal Hizmet Temelleri ve Uygulama Alanları (s. 181-194). Ankara: Maya Akademi. |
| 8. | Qruplarla sosial iş nəzəriyyəsi,yanaşmalar və metodlar | Bu mövzuda qrup işinin yanaşmaları və metodları öyrənilir, qruplarda hansı üsulların daha uyğun olduğu qiymətləndirilir. Bu mövzuda qrup yanaşmalarının hər birinin əsas xüsusiyyətləri başa düşülür. | Akkaya, A. (2019). Psikososyal Gelişim Alanı Olarak Bilgelik Gelişiminin İncelenmesi. Yayınlanmamış Yüksek Lisans Tezi). Kocaeli Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Kocaeli. |
| 9. | Qrupun dinamikası | Mövzuda açıq-qapalı qruplar, homojen-heterojen qruplar haqqında,qruplarda transfer haqqında izah verilir. Mövzuda qrupda liderlik və liderlik üslublarına da aydınlıq gətirilir | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |
| 10. | Təşkilati və Sosial Sahələrdə qruplarla iş | Mövzuda təşkilati yanaşmalar haqqında söz açılır və bir sıra yanaşmalar : Elmi idarəetmə,İnsan münasibətləri məktəbi,X və Y nəzəriyyəsi, Ümumi keyfiyyət yanaşması, | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |

| | | | |
|---|---|---|---|
| | | Maslovun ehtiyaclar iyerarxiyası açıqlanır | |
| 11. | Ailə sistemi,ailənin həyat dövrü və ailə problemləri | Mövzuda ailə anlayışı,ailənin quruluşu,ailənin funksiyaları,ailə tipləri,ailə sistemi,ailənin həyat dövrü,ailə problemləri haqqında danışılır. Ailə təsnifatında üstünlük verilən Geniş ailə(ənənəvi ailə),Nüvə ailəsi(müasir ailə) və parçalanmış ailə ayrı-ayrılıqda izah edilir | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |
| 12 | Ailələrlə sosial işdə terapiya və məsləhət yanaşmaları | Ailələrlə sosial işdə istifadə olunan müdaxilə üsulları : duyğu əsaslı müdaxilə,strateji müdaxilə,koqnitiv-davranış müdaxiləsi,psixodinamik terapiya,struktur ailə terapiyası,sistemli ailə terapiyası və s. müdaxilə üsulları izah edilmişdir | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |
| 13 | Ailə münaqişələri,ailədə boşanma və parçalanma | Mövzuda ailələrdə olan qarşılıqlı münasibətlərə ziyan verə biləcək amillər göstərilir. Bu amillərin iqtisadi amillər,asosial amillər,psixoloji amillər,tibbi amillər və pedaqoji amillərdən ibarət olduğu açıqlanır. | Artan T. (2017). Sosyal Hizmet Kuramları, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, |
| 14 | Ailəyə təklif edilən sosial xidmətlər | Bu mövzuda ölkəmizdə ailə münasibətlərinin dayanıqlığına təsir göstərən amillər göstərilir və bütün bunların misalında zorakılığa məruz qalmış şəxslərin hekayələri dinlənilmişdir | актюхина Е. Г. Развод в молодых семьях в условиях трансформации ценностей: автореф. дис. ... канд. социол. наук. - |

| | | | |
|---|---|---|---|
| | | | Волгоград, 2013, 28 с. |
| 15 | Azərbaycanda ailə,ailədaxili münasibətlər və azərbaycan ailəsinin inkişaf tendensiyası | Azərbaycan ailəsinin inkişaf tendensiyalarının təhlilinə həsr edilmiş araşdırmalarda olan üç yanaşma açıqlanır. Mövzunun izahı zamanı aparılmış ictimai rəy sorğuları da nəzərə alınmışdır | Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. UNFPA Azerbaijan, 2015 |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir. Seminar dərsində bal yazılacaq. Maksimum 20 bal yığılacaq. Maksimum balı yığmaq üçün 4 dəfə 10 bal almalıdır. Tələbə az bal da ala bilər. Məsələn : Tələbə 1 dəfə verdiyi cavabında 10 bal alıbsa bu bal 2 yerə bölünəcək.

## DƏRSƏ DAVAMİYYƏT

Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir.

## ARALIQ QİYMƏTLƏNDİRMƏ

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir

## YEKUN İMTAHAN

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında qiymətləndirilə bilər. İmtahan test qaydasında təşkil olunur. Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

Imtahan və imtahana qədər toplanan ballar cəmlənir və yeкun miqdarı aşağıdaкı кimi qiymətləndirilir:

A- «əla» -91-100

B – «çox yaxşı» -81-90

C – «yaxşı» -71-80

D – «кafi» -61-70

E – «qənaətbəxş» -51-60

F – «Qeyri кafi» - 51 baldan aşağı

**Tərtib etdi:**  ***ƏLİYEVA NƏRGİZ ƏMİRASLAN QIZI***

**“İctimai idarəetmə və sosial innovasiyalar”**

**kafedrasının müdiri i.e.f.d,dos. E.Məmmədov** 